

# Əzizağa Əzizov: "Bu mənim üçün gözlənilməz sürpriz oldu"



■ Xəyalə Rəis
teatrşünas

**Sentyabrın 14-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzaladı. Bu sərəncamla bir sıra sənət adamları "Əməkdar İncəsənət Xadimi", "Əməkdar Artist", "Əməkdar müəllim", "Əməkdar Mədəniyyət İşçisi" kimi fəxri adlarla təltif olundular.**





Həmin siyahıda uzun müddətdir ki, öz növbəsini gözləyən daha bir sənətkarın adına da rastladıq - Əzizağa Əzizov. 55 yaşında "Əməkdar artist" adına layiq görülən aktyor üzümüzə gələn növbəti ayda yubileyini qeyd edəcək.

O, nə az nə çox ömrünün 30 ilini bu sənətə fəda edib. Belə ki, aktyor 1986-cı ildən Azərbaycan Dövlət Opera və Balet Teatrında işləməyə başlayıb. 1999-cu ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyor vəzifəsində çalışır. Teatrda çalışdığı illərdə Ə.Əzizov özünü istedadlı aktyor kimi göstərib. Azərbaycan dramaturqlarının, eləcə də xarici ölkə yazıçılarının əsərlərində onlarla yadda qalan surətlər yaradıb. "O olmasın, bu olsun"da Qoçu, "Bankir adaxlı"da Zaur, "Əlin cibində olsun"da 1-ci adam, "Volqalı canan"da Doymarov, "Səhnədə məhəbbət"də Şvartseneger, "Aldın payını, çağır dayını"da Məzarov, "Bir günlük xəlifəlik"də Şah və s. kimi rollar onu tamaşaçılara sevdirib. O, həmçinin televiziya tamaşalarında və verilişlərində də duzlu, məzəli obrazlar yaratmaqda davam edir.

Qəzetimizin bu dəfəki sayında biz də aktyoru təbrik etməyi özümüzə borc bildik. Beləliklə, Respublikanın Əməkdar Artisti Əzizağa Əzizovun fəxri ad aldıqdan sonra ilk müsahibəsini sizlərə təqdim edirik.

**- İlk olaraq sizi fəxri ad almanız münasibəti ilə təbrik edirik. Bu dəfəki siyahısında sizin də adınızın olacağını gözləyirdinizmi?**

- Açığını desəm, bunu prezidentimizin mart ayındakı sərəncamında görəcəyimi gözləyirdim. Bildiyiniz kimi, martın 10-nu Milli teatr günüdür. Bu dəfəki sərəncamda isə adıma rastlaşacağımı gözləmirdim. Ötən gün ailəmlə birlikdə istirahət edirdim. Teatrımızın direktoru Əliqismət Lalayev mənə zəng edib, təbrik etdi. Əvvəlcə elə bildim ki, mənimlə zarafat edir. Sonradan mənə izah etdi ki, prezidentimiz incəsənət adamlarına fəxri ad verib və o siyahıda mənim də adım var. Mən də ona minnətdarlığımı bildirib, saytlara baxdım. Gördüm ki, doğrudan belədir. Bu, mənim üçün gözlənilməz oldu. Bizim teatrda Novruz Əliyev, Ələkbər Əliyev, Nahidə Orucova kimi məndən çox-çox əvvəl teatra gəlmiş sənət adamları var. Heç zaman onlara fəxri ad verilməyincə fəxri adla bağlı fikir bildirməmişəm. Çünki onlar teatra məndən əvvəl gəliblər və bu sənətdə məndə də çox əziyyət çəkiblər. Belə sənətkarların yanında mənim adla bağlı istəyim heç də düzgün olmazdı. Teatrımızın 140 illiyində o sənətkarlara fəxri ad verildikdən sonra söylədim ki, bu gündən etibarən mən də fəxri ad istəyə bilərəm. İndi bizim nəsil gəlir.

**- Gələn ay 55 yaşınız tamam olur. Yubileyinizi necə keçirəcəksiniz?**

- Mən heç zaman kampaniya şəklində ad günü keçirməmişəm. Bütün ad günlərimi ailəm, övladlarımla birlikdə keçirmişəm. Hər kəs bilir ki, mən yubileylərimi ailəmlə keçirirəm.

**- 55 yaşı ömrünüzün baharı hesab edirsinizmi?**

- Heç zaman. 55 yaş doğrudan da çoxdur. Kişilər üçün 55 az yaş deyil. 55 yaş mənim üçün ömrümün payızının son anlarıdır. Hələ qarşıdan boranlı qış gəlir. Allah qismət etsə, 5-10 il ömür versə, onu da yaşayarıq.

**- Yaşlanmaqdan qorxanlardansınızmı?**

- Əsla. Ölüm Allahın əmridir. Hər yaşın öz gözəlliyi var. Kimsə kənarda mənə "dayı", "əmi" deyəndə mən fəxr edirəm. O zaman hiss edirəm ki, artıq yaşlaşmışam, ağsaqqalam. Nəqliyyatda gənclər mənə hörmət əlaməti olaraq yer verirlər. Əgər yaşlanmaq budursa mən yaşlanmaqdan qorxmuram.

**- Sizi daha çox Bəşir teatrında "Afaq gülür-güldürür" tamaşalarından tanımışam. Sizin adınız gələndə gözlərimin önündə Afaq xanım, gülüş canlanır.**

- Bəli, o tamaşaların öz dövrü var idi. İndi Afaq Bəşirqızı ilə birlikdə Musiqili Teatrda çiyin-çiyinə çalışırıq. Bizim Afaq xanımla dostluğumuz o vaxtdan başlayıb. Təəssüf ki, Bəşir teatrı indi fəaliyyət göstərmir. 1995-ci ildə Afaq Bəşirqızının dəvəti ilə "Bəşir" Teatrına getmişdim. 1999-cu ildə "Bəşir" Teatrı ilə paralel olaraq Opera və Balet Teatrında işləyirdim. O teatrda da işlərim çox idi. Afaq xanımın və Hacıbaba Bağırovun xahişi ilə Musiqili Teatra gəldim. O vaxtdan da buradayam. Afaq xanımın mənim sənətimdə, həyatımda çox böyük rolu olub. Bu xanım sayəsində mən sənətdə iri addımlar ata bilmişəm. O xanım mənim üçün hər şey edib. O xanım "Bəşir" Teatrında işlədiyim zamanlarda mənə əl tutub, dolandırıb. İndiyə kimi onun nəzərləri, diqqəti, qayğısı mənim üzərimdədir. Sənətim və ailəm üçün çəkdiyi o əziyyəti heç vaxt itirə bilmərəm, ona görə o vaxt öz xanımımla belə qərara gəldik ki, qızımızın adını Afaq qoyaq. Hər dəfə Afaq deyəndə bilim ki, qızıma kimin adını qoymuşam və onun əziyyətini itirməyim.

**- Qeyd etdiniz ki, bundan əvvəl Opera və Balet Teatrında çalışmısınız. Musiqili Teatrla Opera Teatrı arasında böyük fərq var. İki teatr arasında necə uyğunluq tapdınız?**

- Mən Mirzəağa Əliyev adına İncəsənət Universitetinin "Musiqili komediya" fakültəsini bitirmişəm. Hərbi xidmətdən gəldikdən sonra mənim təyinatımı Opera Teatrına verdilər. Mən də heç vaxt orkestr-filan görmədiyim üçün məni xora götürdülər. Söylədilər ki, ilk olaraq xorda işlə, sonra səni solisti kimi götürərik. Vəziyyət elə gətirdi ki, daima xorda ifa edəsi oldum. O zaman Bakı şəhərinə qeydiyyatım yox idi. Opera teatrından mənə bir otaq verdilər, qeydiyyata saldılar. Orada çalışdığım vaxtlarda 1995-ci illərdə Musiqili Teatrda Nəsibə Zeynalova, Siyavuş Aslan kimi korifey sənətkarlarla işlədim. O zamanlar Musiqili Teatrda müqavilə əsasında çalışırdım. Mənim üçün burada heç bir çətinlik yox idi.

**- Deyirlər ki, indi səhnədə insanları güldürmək çox çətindir, hətta mümkünsüzdür. Siz necə düşünürsünüz?**

- Hər bir dövrün öz gülüş səhnələri var. Əvvəllər internet, sosial şəbəkələr yox idi. Texnika bu qədər inkişaf etməmişdi. Ona görə insanları güldürmək asan idi. Bu gün dünyanın hansı ölkəsində istəsəniz hər hansı tamaşa, komediya, şouya baxmaq mümkündür. Müasir insanlar gülmək üçün televiziya qarşısına keçib teletamaşaya və yaxud teatra gedib hansısa bir tamaşaya baxmağa ərinirlər. Onlar internet vasitəsi ilə istədikləri an özlərinə gülüş obyektləri tapa bilirlər. Ancaq buna baxmayaraq şükürlər olsun ki, hər zaman bizim teatrın tamaşaçısı olub. Tamaşaçı cəhətdən qıtlıq çəkməmişik. Tamaşaçılar baxıb çox razı da gedirlər. Bu fikirlərlə qəti şəkildə razı deyiləm. Çünki hər bir gülüşün öz alıcısı var. Bu gün komediya üslubunda seriallar çəkilir. Getdikcə onların da keyfiyyəti artmağa başlayacaq.

**- Yaradıcılığınıza nəzər saldıqda görürük ki, baş rollarda çox az hallarda çıxış etmisiniz. Sizcə, bu nədən qaynaqlanır?**

- Mən deməzdim ki, baş rollarda çox az çıxış etmişəm. Misal üçün, "Subaylarınızdan görəsiniz"də Seyfi, "Məşədi İbad"da Qoçu Əsgər, "Arşın Mal Alan"da Soltan bəyi, "Qızıl toy"da Rəhimi, "Molla Xəlil Kimyagər"də Hacı Kərim kimi obrazlar canlandırmışam. Bunların əksəriyyəti baş rollardır. Düzdür, kiçik və orta obrazlarım da olub. Ümumiyyətlə, aktyor bütün obrazlarda oynamalıdır. Musiqili Teatrın aktyoru tək mən deyiləm ki, bütün baş rolları mənə versinlər. Mənə verilən obrazlardan çox razıyam. Hər bir rolun öz gözəlliyi var.